# YAZIYA POZU YOXDUR DEYİRİK

## *yaxud, yazıçı Ulduz Qasımın yeni kitabı haqqında*



*Şəddat CƏFƏROV,*
*iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,*
*Azərbaycan və Rusiya Yazıçılar və*
*Jurnalistlər Birliklərinin üzvü,*
*Beynəlxalq Yazarlar Birliyinin üzvü*

***(Əvvəli ötən sayımızda)***

Ulduz Qasımın yaradıcılığına bələd olan hər hansı ədəbi mühit adamı yaxşı bilir ki, o, istedadlı nasir kimi müstəqillik dövrü Azərbaycan ədəbiyyatının tarixində öz yerini mübahisəsiz olaraq müəyyən edib. Artıq dəfələrlə qeyd etdiyimiz kimi o, roman "Qarabağnamə" silsiləsi ilə Vətən müharibəsinin möhtəşəm bir salnaməsini yaradıb. Həmin əsərləri yazılma tarixi ilə yox, əsərə gətirilən hadisələrin ardıcıllığı ilə düzsəydik müharibə tariximizin demək olar ki, tariximizin qaranlıq heç bir tərəfi qalmazdı. Bu, yazıçı əməyinin bəhrəsidir. Nə üçün U.Qasımın yaradıcılığı sürətlə oxucu düşüncəsinə yol tapdı? Necə oldu ki, onun əsərləri qonşu ölkələrdə də nəşr olundu. Axı bu qədər geniş mühitə yayılma xüsusi sifarişlə mümkün ola bilməzdi. Demək bunun bircə səbəbi var; o da yazıçının oxucu aləmini özünə cəzb edən istedadda olmasıdır.

"Xocalı şikəstəsi"ni, "Qarabağda qiyamət"i, Solmayan nərgiz"i oxumaqla biz insanın hansı əzablara dözməli olduğunu əyani görə bilirik. Yaxud beyinləri zəhərlənmiş erməni faşitlərinin qeyri-insani əməllərini o qədər reallıqla təsvir edir ki, qətiyyən bu epizodları yaddan çıxarmaq mümkün olmur. Oxucu uzun müddət həmin hadisələri vahiməli yuxu kimi yaddaşında saxlayır. Beləliklə, ədəbi tənqid müasir oxucu düşüncəsinin münasibətini əks etdirən publisistikamız Ulduz Qasım yaradıcılığına biganə qalmır. Çünki biz onun əsərlərində həqiqətləri görə bilirik. Şübhəsiz Ulduz Qasımın yaradılığı uzun müddət tədqiq olunacaq, onun müharibə dövrü xronikasını özündə əks etdirən romanları təkcə bədii əsər kimi yox, həm də tarix kimi qavranılacaq. Elə bu səbəbdən də Ulduz Qasımın yaradıcılığı daim tədqiqat obyekti olacaq.

Şübhəsiz, Ulduz Qasımın yaradıcılığı tədqiq olunan hən hansı bir yazıda müəllif Əli Rza Xələflinin "Yazıçının Vətən dağı" ikicildlik ədəbi-tənqidi düşüncələr əsərini mütləq xatırlayacaq, bir çox hallarda ona istinad edəcəklər. Ulduz Qasımın "Dağlarla söhbət" adlı bir essesi haqqında Ə.R.Xələfli də elə yeni kiatbında "Sözün Ulduz axarı"nda geniş və əhatəli bəhs edib. Həsin essedən ayrı-ayrı parçaları ehtiva edən dəyərli bir yazı ilə oxucunun diqqətini Ulduz Qasımın yaradıcılığına cəlb etməyə çalışıb.

Mən də həmin essedən haliyəm. Çünki Ulduz Qasımın əsərlərinin naşiri kimi həmin ürək parçalayan qeydləri oxumuşam. İndi Ulduzun həmin essesindən kiçik bir parçanı oxucumun diqqətinə təzədən çatdırmaq istəyirəm: *"Mən dağları parçalanmış Türk millətinə bənzədirəm. Hərəsinin bir zirvəsi var. Dünyanın hər yerindədilər. İndi hərəsinə bir ad veriblər. Bir tərəfi İranda, bir tərəfi Turanda, daha haralarda, hansı adda... İçimi didir bu suallar. Nədən ayrı düşdük? Nədən parçalandıq? Niyə pozuldu birliyimiz? Kimin nəzərinə, kimin gözünə gəldik? Mərhəmətimizdən niyə bu qədər qəddarcasına istifadə etdilər? Gör, nə qədər suallarım var, sənə dağlar! Bəsdi ah etdin, bəsdi başından çıxdı həsrətin dumanı, çəni. Danış mənimlə, danış...Danış ki, olanları bilim, sirrini bəyan edim. Danış ki, yüngülləşəsən, azad olasan sükutdan... Hələ səndən soruşmaq istəyirəm ki, niyə bu qədər pisliklər, qəddarlıqlar var? Bəlkə sən elə bunları görüb daşa dönmüsən, lallaşmısan təəccübündən. Danışmaq istəməmisən, cansızlaşmısan... Yerini dəyişməmək üçün, torpağından gen düşməmək üçün."* Ulduz Qasım Əli Rza Xələflinin də qeyd etdiyi kimi, bu bədii parçada cavab tələb etməyən çoxlu suallar qoyur. Sanki həmin suallarla özünün tələbini təbiətə və cəmiyyətə laqeyd olan insanları kimsələri hədəfə alır.

Şübhəsiz, bu cür yanaşma çox təsirlidir. İstər-istəməz oxucu həmin tələblər qarşısında özünü də cavabdeh bilir. Doğrusu, bu qədər axınla, fikir axarı ilə danışmaq, yazmaq ancaq istedadlara xas olan keyfiyyətdir. Görünür, Əli Rza Xələflinin də Ulduz Qasım yaradıcılığından bəhs edən yeni kitabını "Sözün Ulduz axarı" adlandırması da təsadüfi deyil.

Onsuz da kimsə düşünürsə ki, bir səsrlə, bir yazı ilə cəmiyyətin bütün kəm-kəsiri düzələcək, yəqin ki, səhv edir. Ancaq əgər yazı olmasaydı, insanlar yazı qarşısında cavabdeh olmasaydılar bu, cəmiyyət üçün facianəliklə nəticələnərdi. İndi ULduz Qasımın "Dağlarla söhbət"indən daha bir parçaya diqqət edək: *"Hardan bilim indi, kimdən soruşum? Axı, bütün tarixdə olanlara sən şahidsən, sən görmüsən. Bəlkə də qəddar insanların etdikləri səni bu qədər təəccübləndirib, heyrətləndirib? Gör, ağlıma nələr gəlir. Dərdini çözmək üçün, bilmək üçün nələrləri düşünmürəm... Bilirsən, hərdən də fikirləşirəm, dil açsan, danışdıqların fəlakətlə-*




**Sözün Ulduz axarı**

*rə səbəb olar. Kimləri qınamarıq, kimləri mühakimə etmərik ki... Gözümüzdən düşər kimlərsə, nələrlərsə... Amma, mənə elə gəlir ki, mən səni çox yaxşı anlayıram. Başa düşürəm, duyuram..."* Göründüyü kimi, bu parçalarda dağlar çox canlı təsvir olunur. Dağlar təbiət obrazıdır. Dağlar nə qədər əzəmətli olsa da, bəzən zəlzələlər, vulkanlar onu da parçalayır. Ulduz Qasım son vaxtlar xalqımızın başına gələn müsibətləri parçalanmış dağlarla müqayisə edir. Bəli, bir-birinə doğma olan insanlar bir-birindən ayrı düşəndə zəifləyir, gücsüzləşir. Ona görə də düşünürəm ki, elə yazıçının missiyası mənsub olduğu xalqı birliyə çağırmaqdır, bütövlüyə səsləməkdir. Nə qədər ki, biz öz dəyərlərimizi hifz edib, birliyimizi qorumaq gücündə olacağıq, onda düşmənlər də torpaqlarımızı qəsb etmək niyyətinə düşə bilməyəcəklər. Bu mənada, Ulduz Qasım sözün bütün emosional çalarlarından uğurla istifadə edir, yararlana bilir.

Biz Ulduz Qasımı zaman-zaman oxuduqca yenidən, daha əhatəli şəkildə dərk edəcəyik. Çünki onun hər bir əsərində nəhəng insan qalereyasının ayrı-ayrı obrazları çox doğmalıqla təsvir olunur. Ulduz hər bir əsərində cəmiyyətə faydalı ola biləcək insana sonsuz sevgisini əsirgəmir.

Yazıçının "Vətən dağı". Adından da göründüyü kimi, yazıçı və Vətən mahiyyətinə nüfuz etmək gücündə olan monoqrafiyadır. Bundan sonra Ulduz haqqında nə yazılsa həmin monoqrafiyadan ayrılan yolların son nəticədə Ulduz Qasım yaradıcılığında birləşdiyini görə bilərik. Zənnimcə, Ulduz Qasımın Vətən ağrıları bu ikicildlik monoqrafiyada kifayət qədər öz əksini tapıb.

Qeyd etdim ki, həmin monoqrafiya Ə.R.Xələflinin Ulduz Qasımın yaradıcılığına həsr etdiyi təd-



qiqat əsəridir. Elə buna görə də məqalə müəllifi Azərbaycan ədəbiyyatşünaslığının görkəmli simalarını xatırlayır və Ə.R.Xələflinin sələflərindən yaradıcılıqla bəhrələnməsini qeyd edir. Ədəbiyyatşünaslıq elmimizin ən yaxşı ənənələrinin davamçısı kimi özünü təsdiq edir. Əlbəttə, burada təfərrüata varmağa lüzum qalmır. Sadəcə onu qeyd edirəm ki, Yadulla Ağazadə Ulduz Qasım yaradıcılığına bir neçə dəfə müraciət edir və hər dəfə yazıçının mənəvi mühitinin dərin qatlarına nüfuz etməklə maraqlı mülahizələrini oxucularla bölüşür.

"İşıq yaradan sızar" adlı qeydlərində də biz professor Y.Ağazadənin səmimi mülahizələri ilə tanış olur və onun U.Qasım yaradıcılığına dəyərli münasibətini təqdir edirik.

U.Qasım fəal publisistdir. Onu da qeyd edim ki, hətta sosial şəbəkənin imkanlarından istifadə edərək ən mübahisəli məsələlərə prinsipial və əqidəli yanaşması ilə diqqəti cəlb edir. Onun maraqlı məqalələrindən biri Ə.R.Xələflinin sosial şəbəkədə yayılmış şərhlərinə həsr olunub. Və müəllif həmin yazısını "Nöqtələrin dedikləri" adlandırır.

***(Davamı 11-ci səhifədə)***

*(Əvvəli 10-cu səhifədə)*

Mən də müşahidə etmişəm. Əli Rza Xələfli sosial şəbəkədəki qeydlərində çox nöqtələrdən aşırılılıqla istifadə edir. Yəni müəllif olaraq o, fikirləri çox açıqlamağa lüzum görmür, düşüncələrini tezis şəklində ifadə edir və qalan hissəni oxucunun ixtiyarına buraxır. Bunu Ulduz Qasım da müşahidə edib. Həmin "Nöqtələrin dedikləri" adlı məqaləsində yazıçı həmkarının oxucu ixtiyarına buraxılmış mülahizələrinin mahiyyətini açmağa çalışır. Onu da qeyd etməliyəm ki, yazıçının maraqlı məqalələrindən ibarət toplunu Əli Rza Xələfli elə "Nöqtələrin dedikləri" adı ilə nəşrə hazırladı, həmin nəşrə mən də rəyimi yazdım və Ulduz Qasımın yeni ədəbi-publisistik kitabı işıq üzü gördü.

"Sözün Ulduz axarı" kitabına toplanmış məqalələrin sırasında Ə.R.Xələflinin "Nöqtələrin dedikləri"nə cavab əvəzi" essesinə də rast gəldim. Maraqlı fikir, düşüncə məhsuludur. İki sənətkarın sanki bir-biri ilə dialoqudur. Hər halda bu qeydlərdə müəllif oxucu ruhunu mənəvi təmizlənməyə çəkir. Sözlə oxucula oxudum. Yazı "Sözün divanında" adlanır. Söz yox ki, yazıçı-publisist Zemfira Məhərrəmlinin qeydləri də fikir aydınlığı ilə diqqəti cəlb edir. Müəllif bu qeydlərində yazıçı Ulduz Qasımın Qarabağnamələr silsiləsinə diqqəti yönəldir. Səmimi yanaşması ilə oxucu və yazıçı arasında körpü yaratmağa çalışır.

Yeri gəlmişkən, burada qeyd etməliyəm ki, sosial şəbəkə indi həyatımızın bir hissəsidir. Bu hüdudsuz sistemdə hər kəs fikir və düşüncələrini dövrünün, mühitinin insanları ilə bölüşmək imkanı əldə edir. Yuxarıda qeyd etdim ki, U.Qasım sosial şəbəkədə də çox fəaldır. Ən müxtəlif məsələlərdə maraqlı polemikalar yarada bilir. Mübahisələri, fikir bölüşmələri oxucu yaddaşında qalır. Görünür, elə bu səbəbdən Ə.R.Xələfli kitabı tərib edərkən U.Qasım yaradıcılığına münasibət bildirən sosial şəbəkə istifadəçilərinin qeydlərini də daxil edib.

Çox da uzaq olmayan yaxın vaxt üçün Ulduz Qasımın daha möhtəşəm romanları, əsərləri ilə tanış olacağıq. Onun əsərləri haqqında yeni-yeni rəylər yazılacaq. Ancaq mən deyim ki, Ə.R.Xələflinin Ulduz Qasım yaradıcılığını bütün əhatəliliyi ilə və*istedadla doğulmuş insanlara xasdır.*

*...Ulduzun varlığında yaradıcılıq istəyi haqdan gəlmədir. Onun yazıçı təbiəti, sənətkarlıq istedadı ruhdan gəlmə sözü ilə sanki qeybdən xəbər verən bir şamanın duyğulanmalarını əks etdirir. Əgər qəbul etsək ki, yaradıcı insanlar ən doğru şamanlardır, onda Ulduz Qasımın elə anadangəlmə şaman olduğunu da etiraf etməliyik".* Bu qeydləri kitabın üz qabığına çıxarmağı Əli Rza Xələfliyə mən məsləhət görmüşdüm. Çünki bu qeydlərdə Ulduz Qasımın yazıçı oğrazı artıq qeyd etdiyim kimi, daha aydınlığı ilə görünür.

Doğrusu, status janrı publisistikamızda dövrün tələbi olaraq meydana çıxıb. İndi haqlı olaraq həyatımızı statuslardan kənarda təsəvvür edə bilmərik. Çünki son vaxtlar söz-sənət adamlarının fikir və düşüncələrini ifadə etmək üçün "status" janrından geniş istifadə edirlər. Ulduz Qasımın özü də artıq status janrı üçün xeyli təcrübə qazanıb. Elə Ə.R.Xələflinin bu qeydləri də Ulduz Qasımın yazıçı obrazını göstərmək baxısından maraqlı statuslardır.

İnsafən, kitabda toplanan materialların, demək olar ki, hamısı seçmə qələm məhsullarıdır. Təranə məcburi miqrasiyasından dolayı nə qədər ailələrin qəlbində sızıntılı, sağalmaz şırımlar açıb. Maddi qazanc axtarışı ilə başlayan xaotik köç karvanları sonucda ən böyük zərbələri mənəvi dəyərlərimizə vurmaqla onları siradan çıxarmaq kimi "başından böyük qələtli" işlərə vəsilə olub. Yaxşı kt, bu zərbələr kütləviləşə, hamımızı əhatə edə bilməyib...". Bu qeydlərə nəsə əlavə etmək fikrim yoxdur.

Görkəmli şair, əməkdar incəsənət xadimi Vaqif Bəhmənlinin özü də Ulduz Qasımı hələ gənckən kəşf edən sənətkarlarımızdandır. O, öz qeydlərində U.Qasımın sənət siqlətini yüksək dəyərləndirir. Bununla da biz Ulduz Qasımın görkəmli söz xiridarlarının ədəbi-publisistik yaradıcılığında əks-sədasını yaxından müaşhidə edirik.

İstedadlı şair-publisist Hikmət Məlikzadənin, filoloq-alim Şakir Albalıyevin maraqlı qeydləri məndə belə bir təsəvvür yaratdı ki, Ulduz Qasım ciddi yaradıcı sənətkar kimi Azərbaycan ədəbi mühitində yaxından tanınır. Düşünürəm ki, söz-sənət xiridarları həm Hikmətin, həm də Şakir Albalıyevin qeydlərindəki səmimiyyəti məmnunluqla qəbul edə-

# YAZIYA POZU YOXDUR DEYİRİK

## *yaxud, yazıçı Ulduz Qasımın yeni kitabı haqqında*

nun qəlbinə səmimi duyğular aşılayır.

Əlbəttə, Ə.R.Xələflinin bu kitabda çoxlu yazıları var. "Vətən üçün yanan Ulduz", "Yazıçının vətən dağı" kimi maraqlı qeydlərin hər biri xüsusi diqqət və yanaşma tələb edir. Fikir, düşüncə zəngin olanda, həyatla sənətin ahəngdar birliyi cəmiyyətin mənəvi mühitinə daha tez təsir göstərir. Kitabda Təranə Əlizadənin, Fariz Ço-banoğlunun, Məhəmməd Nərimanoğlunun, Müqəddəs Mehdiyevin, Tahir Aydınoğlunun çox maraqlı yazıları yer alıb.

Tahir Aydınoğlu nüfuzlu qələm sahibi kimi məhsuldar əməyi ilə tanınır. O, Ulduz Qasımın yaradıcılığını demək olar ki, yaxşı bilir. Ayrı-ayrı kitablarının redaktoru olub. Müxtəlif əsərlə haqqında fikir və rəylərini də yazıb çap etdirib. Onun "Qarabağ zəfərinin bədii salnaməsi" adlı qeydlərində oxuyuruq: "İnanırıq ki, Qarabağ münaqişəsi və müharibəsi mövzusunda silsilə bədii əsərlər yazmış yurdsevər soydaşımız Ulduz Qasımın bu çoxillik mübarizənin zəfər zirvəsi olmuş Vətən müharibəsinin ilk irihəcmli bədii salnaməsi "Qarabağda qiyamət" romanının ayağı sayalı olacaq, milli ədəbiyyatımız bu mövzunu yeni nəsr əsərləri ilə zənginləşdirəcək. Roman bu sözlərlə bitir: "Şuşanın azadlığından bir gün sonra ətraf rayonlardan bir neçə yaşayış məntəqələri azad olundu, döyüşçülərimiz Xankəndiyə çatdılar... Və sonra...". Gəlin, bu yarımçıq cümlənin davamını müəllifin yeni əsərində gözləyək". T.Aydınoğlunun kitabda digər yazısını da maraqlı tədqiqat əsərləri az olacaq, yaxud da hələ çox sonralar yazılacaq. Mən Ə.R.Xələflinin "Sözün Ulduz axarı" kitabını vərəqlədikcə daha bir bədii həqiqətlə qarşılaşdım. Bu da ondan ibarətdir ki, müəllif Ulduz Qasım obrazının özünü sanki bütöv bir möhtəşəm romanın baş qəhrəmanı kimi tərənnüm edir. Çox vaxt həyat bizim hansı yolla gedəcəyimizi bizdən xəbərsiz müəyyən edir. Şübhəsiz bu zaman bizim əməllərimiz, zəhmətimiz, istəklərimiz sanki proqrama çevrilir və həyatın bizi idarə etməsinə yönəlir.

Əli Rza Xələfli "Nöqtələrin dedikləri" kitabının üz qabığında Ulduz Qasım haqqında, daha doğrusu, onun parlaq yazıçı obrazının xarakterik cizgilərini göstərən qeydlərində yazır: *"...Bu gün Ulduz Qasım adı ilə tanınan və artıq görkəmli yazıçı kimi məşhur olan sənətkar kifayət qədər güclü nəsr təxəyyülünün sahibi olduğunu öz əsərləri ilə sübut etmişdir.*

*...Ulduz Qasım canlı romanlar müəllifidir. Yəni onun qələmə aldığı əsərlərin hər birində həyatın ürək döyüntülərini hiss etmək mümkündür.*

*...Tarix göstərir ki, Ulduz Qasım mənəvi mühitdə boy atımını durğunluqla keçirmədi. O, həyatı, mühiti müşahidələri ilə birləşdirə bildi. Orta məktəbdə oxu istedadını ali məktəbdə daha da inkişaf etdirdi və zaman onun böyük yazıçı olmaq yoluna sədd çəkə bilmədi. O, hələ gəncliyindən başlayaraq qələmə aldığı yazılarında oxucularına ruh xəbərdarlığı göstərirdi. Bu hisslər təbiətən*




Əlizadənin qeydləri, sözün həqiqi mənasında, oxucunun ruhuna işıq salır. Kövrək notlarla qələmə aldığı yazısında müəllif Ulduz Qasıma da, onun qəhrəmanlarına da sanki sonsuz sevgisini ifadə edir.

Publisist Fariz Çobanoğlu da U.Qasımın yaradıcılığını sevə-sevə oxuduğunu qeyd edir. Onun ədəbi qəhrəmanlarını həyatdakı prototipləri ilə müqayisəyə çəkir.

Nəzirməmməd Zöhrablı özünəməxsus orijinal üslubla, qeydlərini yarımbaşlıqlara ayırmaqla fikirlərini oxuculara daha qabarıq çatdırmağa çalışır. O, Ulduz Qasımın bədii axtarışlarını ümumiləşdirərək yazır: "Axtarış səbəbləri eynidi. Yaşadığımız zaman çərçivəsi soydaşlarımızın qazanc dalınca məcburən olmasa da, çəklər. İnanıram ki, Ə.R.Xələflinin tərtibçi-müəllif hüququnda oxuculara təqdim etdiyi bu kitab da zəngin Ulduz Qasım yaradıcılığının ən müxtəlif tərəflərinə işıq salacaq, müasirlərimizin mənəvi zənginliyi üçün dəyərli qaynaq olacaqdır.

Ə.R.Xələflinin tərtibçi-müəllif hüququnda nəşr etdirdiyi "Sözün Ulduz axarı" məqalələr toplusunda bütün yazılar məntiqi ardıcıllıqla bir-birinə bağlanır.

Yazıçının taleyi nə qədər əsərləri ilə həmahəngdirsə, bir o qədər də həyatda həmahəngdir. Xələfli "Sözün Ulduz axarı" kitabı ilə yazıçı və həyat bağlılığını bir daha oxucu diqqətinə çəkir.

Ulduzlar kainatda saysız, sonsuz olsa da, xüsusi bir nizamla hərəkətdədir. Ruhları qidalandıran fikirlərin sözə çevrilməsi də sanki ulduz axarına bənzəyir.

Ekologiya tarixi üzrə tədqiqatçı, fəlsəfə doktoru Dirili Yusif yazır ki, "Ulduz xanım, hər bir məqaləniz sanki nümunəvi, gözəl bir hekayətdir, mükəmməl bədii əsərdir". Mən isə qeyd edərdim ki, bu deyilənlər elə həm də tərtibçi-müəllifin özünə aiddir. Çünki o, hər bir məqaləsində Ulduzun yaradıcılıq aləmi ilə bağlı daha yeni bədii sirlərin açımına işıq salır.

Söz və sənətkar. Yəqin ki, bu qoşa tandem insanlığın inkişafı boyu həmişə araşdırılacaq. "Sözün Ulduz axarı" məhz bu yola xidmət edir. Müəllifə və onun qəhrəmanına uğurlar arzalayıram.

*05.07.2025*